# Aqrar islahatlar ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır



***Son illərdə respublikamızda aqrar sektorda həyata keçirilən kompleks tədbirlər, bu sahənin inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun strateji hədəflərin və institusional dəyişikliklərin diqqətdə saxlanılması ölkə əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatına müsbət təsir göstərib, eyni zamanda, yeni iş yerlərinin açılmasında, kənd təsərrüfatı məhsullarının ixracından daxil olan gəlirlərin artmasında, fermerlərin maddi rifahının yüksəlməsində önəmli rol oynayıb.***

Kənd təsərrüfatında iqtisadi fəallığın yüksəlməsi, fermerlərin bazar şərtlərinin yaxşılaşması üçün Prezident İlham Əliyevin 19 dekabr 2018-ci il tarixli "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsinə dair" fərmanı həyata keçirilən aqrar islahatların sürətlə aparılmasını şərtləndirib. Onu da qeyd edək ki, adı çəkilən fərmana əsasən, aqrar sahənin inkişafı məqsədilə müvafiq mərkəzlərin yaradılması nəzərdə tutulub. Bu mərkəzlərin fəaliyyətə başlaması ilə aqrar sektorda xidmətlərin səmərəliliyinin artırılması reallaşıb.

Aqrar sektorda istismar müddəti başa çatmaqda olan avadanlığın yenilənməsi, yüksək məhsuldarlığa çatmaq üçün innovativ texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi, aqrotexniki xidmətlər göstərilməsində rəqabətin və keyfiyyətin yüksəldilməsi, kənd təsərrüfatına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi kimi məsələlərin həlli istiqamətində də mühüm layihələr gerçəkləşdirilib. Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyin vəsaitindən istifadə qaydalarının təsdiqlənməsi və icrasına başlanması isə bu sahədə texnikanın, həmçinin damazlıq heyvanların lizinq vasitəsilə güzəştli satışını reallaşdırıb, büdcə vəsaitindən səmərəli istifadəyə əlverişli şərait yaradıb.

Bütün bunlarla bərabər, ayrı-ayrı kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi, qlobal trendlərin müəyyən edilməsi, yerli bazarda mövcud vəziyyətin dəyərləndirilməsi, habelə kənd təsərrüfatı bitkiləri üzrə dəyər zəncirinin təhlili, gübrə və pestisidlərdən istifadə səviyyəsinin qiymətləndirilməsi, məhsulların ixrac potensialının artırılması istiqamətində təhlillərin aparılması, kənd təsərrüfatı məhsullarının daxili bazarda qiymətlərinin tənzimlənməsi və s. kimi məsələlərin həlli də sektorun inkişafını sürətləndirib.

Ümumiyyətlə, son 10 il ərzində kənd təsərrüfatında görülən işləri ümumiləşdirib deyə bilərik ki, aqrar sahəyə dövlət dəstəyi, o cümlədən maliyyələşmə mexanizmi təkmilləşdirilib, aqrar sığorta inkişaf etdirilib və investisiyaların cəlbi üzrə stimullar sistemi formalaşdırılıb.

Dövlət dəstəyi nəticəsində aqrar sığortanın tətbiqi getdikcə genişlənib, bunun nəticəsində əkin sahələrini və heyvanları sığortalayan fermerlərin sayı artıb. İndiyədək aqrar sığorta çərçivəsində ümumilikdə 1,7 milyon manatdan artıq sığorta haqqı toplanılıb. Bu məbləğin 1,2 milyon manatı heyvandarlıq, 500 min manatı isə bitkiçilik sektorundan əldə olunub. İyun ayına olan məlumata görə, bugünə kimi 2100-ə yaxın mal-qara və 11,2 min hektar əkin sahəsi sığortalanıb.

Aqrar sahədə idarəetmə sistemi müasirləşdirilib, ekoloji təmiz və keyfiyyətli kənd təsərrüfatı məhsul və xidmətlərinə çıxış artırılıb. Bu sahədə istehsalın texnika və istehsal vasitələrilə təminat səviyyəsi yaxşılaşdırılıb, əlçatanlığın artırılması üzrə institusional islahatlar aparılıb.

Kənd təsərrüfatının aparıcı sahələrində müasir texnologiyaların intensiv tətbiqinə nail olunub, məhsuldarlığın və ixracın artması trendə çevrilib. Əksər kənd təsərrüfatı və qida məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi gerçəkləşdirilib. Aqrar sahə üzrə məlumat bazaları yaradılıb və kənd təsərrüfatının elektronlaşdırılması işlərinə başlanılıb. Sözügedən sahədə aqrar emal sənayesi və logistika infrastrukturu da inkişaf etdirilib. Keyfiyyətə nəzarət və qida təhlükəsizliyi sahəsində mühüm islahatlar həyata keçirilib.

Bütün bunların nəticəsidir ki, 2021-ci ilin yanvar-iyun ayları üzrə Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı artıb. Həmin müddət ərzində kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 4 milyard 370,4 milyon manat təşkil edib ki, onun da 2 milyard 153,7 milyon manatı heyvandarlıq, 2 milyard 216,7 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 5,6 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,4 faiz, bitkiçilik məhsulları üzrə isə 8,9 faiz artıb.

Ölkənin ərzaq təhlükəsizliyində mühüm rol oynayan taxıl istehsalında da uğurlu göstəricilər əldə edilib. Kənd Təsərrüfatı Nazirliyinin operativ məlumatına görə, iyulun 1-dək 744 min hektar sahədə biçin aparılıb. Sahələrdən 2 milyon 400 min ton məhsul yığılıb. Taxıl üzrə orta məhsuldarlıq 32,2 sentner təşkil edib.

Sonda bir məsələni də xatırlatmaq istərdik. Azərbaycanın işğaldan azad edilən ərazilərinin böyük kənd təsərrüfatı potensialı var. Həmin ərazilərin bərpa edilməsi, əkin işlərinə başlanılması ölkədə kənd təsərrüfatı məhsullarının bolluğuna səbəb olacaq ki, bu da öz növbəsində həmin məhsulların qiymətinin ucuzlaşmasına gətirib çıxaracaq. Bu, şübhəsiz ki, Azərbaycanın ixrac potensialını da xeyli dərəcədə artıracaq. Çünki işğaldan azad olunan torpaqlar öz münbitliyi və məhsuldarlığına görə seçilir. Sovetlər dövründə bu torpaqlarda bol pambıq, taxıl, üzüm, tərəvəz və digər kənd təsərrüfatı məhsulları yetişdirilib, heyvandarlıq inkişaf etdirilib. Böyük potensiala malik ərazilərin yenidən əkin dövriyyəsinə qaytarılması isə ölkədə aqrar sahənin inkişafına yeni təkan verməklə bərabər, həm də xaricdən idxal olunan kənd təsərrüfatı məhsullarının qarşısını xeyli dərəcədə alacaq.

***"Xalq qəzeti"***